**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci il tarixli 90 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Nərimanov bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Teyyublu Xəzər Qardaşəli oğlunun səlahiyyətli nümayəndəsi Quliyev Pərvin Bəhram oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək 18 saylı Nərimanov-Nizami və 20 saylı Nərimanov ikinci seçki dairələrinin Nərimanov bələdiyyəsini əhatə edən bəzi seçki məntəqələrində səsvermə günü qanun pozuntularının olduğunu iddia etmiş və səsvermənin nəticələrinin etibarsiz hesab edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək ərizəçinin müraciəti Mərkəzi Seçki Komissiyası tərəfindən qanunla müəyyən olunmuş müddətdə və qaydada araşdırılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmişdir.

Şikayətdə göstərilən halların tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması, iş üzrə zəruri olan bütün sübutların əldə edilməsi nəticəsində müəyyən edilmişdir ki, müraciətdə iddia edilən hallar əsassızdır.

Belə ki, araşdırma zamanı 18 saylı Nərimanov-Nizami seçki dairəsinin 7 və 9 saylı, 20 saylı Nərimanov ikinci seçki dairəsinin 4, 13, 15, 18 və 24 saylı məntəqə seçki komissiyası üzvlərinin, Nərimanov bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlərin, həmin seçki məntəqələrində müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən müraciətdə adları qeyd edilən seçki məntəqələrində səsvermə seçicilərin yüksək fəallığı ilə keçmiş, hər bir seçici ona yaradılmış əlverişli şəraitdən istifadə etməklə aktiv seçki hüququnu hər hansı təsir olmadan reallaşdırılmış, səsvermə prosesi əvvəldən sona qədər müxtəlif maraqları təmsil edən müşahidəçilərin bilavasitə müşahidəsi ilə həyata keçirmişdir.

Göstərilənlərdən əlavə olaraq, 18 saylı Nərimanov-Nizami seçki dairəsinin 7 və 9 saylı məntəqə seçki komissiyasının üzvləri Ə.M.Məmmədov, S.F.Cabbarov, N.M.Mərdanov, Ə.S.Qurbanov, G.S.Əliyev, G.H.Bəbirov, A.H.Məmmədov, V.C.Talıbov, 20 saylı Nərimanov ikinci seçki dairəsinin 4, 13, 15, 18 və 24 saylı məntəqə seçki komissiyasının üzvləri A.T.Bağırova, R.B.Abışova, Ə.R.Məmmədov, M.Ə.Məmmədov, T.M.Əliyev, Q.M.Mürşüdov, G.M.Quliyev, A.M.Bağırova, A.T.Rzayev, M.M.Qocayeva, Nərimanov bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlər A.M.Vəliyev, İ.K.Qarayeva, E.A.Abdullayev, həmin seçki məntəqələrində müşahidəçi olmuş S.H.İsayeva, D.M.Bayramova, S.S.Osmanov, A.M.Cəfərova, K.İ.Babayeva öz izahatlarında bildirmişlər ki, səsvermə günü seçki prosesində hər hansı qanun pozuntusu müşahidə etməmiş, eyni zamanda hər bir seçici şəxsən səs vermişdir.

Bundan əlavə, araşdırma zamanı müəyyən olunmuşdur ki, 18 saylı Nərimanov-Nizami seçki dairəsinin 7 və 9 saylı seçki məntəqələrində veb-kameralar quraşdırılmış, bütün səsvermə prosesi canlı olaraq internet vasitəsilə izlənilmişdir.

Göstərilənlərə əsasən müracətdə qeyd edilən iddialar əsassız hesab edilərək, şikayət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Nərimanov bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Teyyublu Xəzər Qardaşəli oğlunun səlahiyyətli nümayəndəsi Quliyev Pərvin Bəhram oğlunun 1 yanvar 2015-ci il tarixli 90 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |